# Azərbaycanın xarici işlər naziri Beynəlxalq Türk Akademiyasının rəhbəri ilə görüşüb

**İyunun 18-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Beynəlxalq Türk Akademiyasının rəhbəri Darhan Kıdıralı ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, Ceyhun Bayramov Beynəlxalq Türk Akademiyasının fəaliyyətini yüksək dəyərləndirib və Azərbaycanın akademiyanın işinə verdiyi töhfəni qeyd edib. Türk xalqlarının ortaq tarixi və coğrafiyası ilə bağlı dərsliklərin hazırlanması, habelə Elmi Şuraların fəaliyyəti məmnunluqla qeyd edilib. Nazir akademiyanın fəaliyyətinə şəxsən D.Kıdıralı tərəfindən verilən töhfənin yüksək qiymətləndirildiyini bildirib.

Darhan Kıdıralı Azərbaycana səfəri çərçivəsində Qlobal Bakı Forumunda iştirakını, Şuşa şəhərinə səfərini məmnunluqla qeyd edib. O, Beynəlxalq Türk Akademiyasının Azərbaycanla bağlı bir sıra layihələrinin olduğunu, o cümlədən Şuşanın 2023-cü il türk dünyasının mədəniyyət paytaxtı elan edilməsi ilə bağlı layihələrin nəzərdə tutulduğunu səsləndirib. Azərbaycanın akademiyanı hər zaman dəstəklədiyini söyləyən Darhan Kıdıralı, bu dəstəyin gələcəkdə akademiyanın fəaliyyətinin daha da yüksəlməsinə xidmət edəcəyindən əminliyini bildirib.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

Azərbaycan.- 2022.- 19 iyun.- S.2.